# KİLLER

Qapı yavaşca açılsa da cırıltısına balaca Rafiq dik atıldı.

-Ana, sənsən?

-Mənəm – ananın səsi elə bil lap uzaqdan gəldi,- yavaş, uşaqları oyatma.

-Yerimizə indi girmişik. Elə səni gözlədik, gözlədik, gəlib çıxmadın, biz də yorulduq, girdik yerimizə.

-Nə yemisiniz?

-Ac deyilik.

Uşağın səsindəki titrəyiş Zarranın qəlbini titrətdi. Üz vurmadı, neçə gün idi ki, marqarin yağıyla bir-iki makaronu qaynadıb qoyub gedirdi, iş axtarırdı, tapammırdı. Haraya gedirdi bir-iki günlük iş olurdu. Keçən həftə evin altındakı yeməkxananın qabyuyanı xəstə olduğundan bir həftə onun yerində işlədi. Əməlli-başlı özünün də, uşaqların da qarnını doyuzdurmuşdu. Üst-üstə qalaqlanıb gətirilən boşqabların bəzilərində qalan ət tikələrini bir salafan torbaya yığıb evə gətirib, onları qazana töküb əməlli-başlı yenidən «bişirib» qoydu soyuducuya. Təhlükəsiziydi, yaxşıca qaynadıb «strelizovat» eləmişdi. O da qurtarandan bəri Zarra yenə düşmüşdü çöllərə, döymədiyi qapı yoxuydu.

Qapısını döydüyü adamların da elə bil Zarra diqqətini cədb edə bilmirdi, çəlimsizdi, arıqdı, üfürsən yıxılardı... Əyni-başı da köhnə, solmuş, neçə ilin köhnələri idi. Keçən il beşinci blokdakı Zeynəb ona bir sumka ev əşyaları yığıb vermişdi, Zarra içindən gözə dəyənləri yığıb aparıb satıb qəndçay aldı gətirdi evə. Yüz dəfə Zeynəbə alqış oxudu.

Amma axır vaxtlar qonum-qonşular da onu elə bil unutmuşdular. Əvvəllər yenə də arabir kimin qulpundan nə çıxırdı, ona kömək eləyirdi.

Ərinin Urusyetdən meydi gələndən sonra dörd uşağın qayğısı Zarranın çiynində qaldı. Əri Musa gedib yaxşı iş tapmışdı. Hər ay evə pul göndərirdi. Zarra o qədər də korluq çəkmirdi. Musa keçən il işlədiyi yerdə sətəlcəm oldu, sonra evə məktub yazdı ki, vərəm olub. Zarra dönə-dönə zəng elədi, məktub yazdı ki, «çıx gəl bəri, Rusiyanın soyuğu sənin axırına çıxacaq». Eşitmədi Musa, gəlmədi, dedi müalicə olunur, keçib gedəcək. Amma sonra Zarra ondan nə pul, nə məktub aldı. Qonşularından orada olanlar ona xəbər göndərmişdilər ki, Musa xəstəxanada yatır, yanına heç kimi buraxmasalar da ona tez-tez dəyirlər. Qonşu Suğra keçən il dedi ki, «Musanı gördüm, ayaq üstə ölüb. Az, yazıqdır, o gədəyə oranın havası düşmür, çağır gəlsin öz elinə. Bizim günəşli ölkəmizdə adam vərəm olmaz. Amma oranın havası sırısdı, belə ciyərlərin düşmənidi, biz yenə arabir araqdan-zaddan istifadə edirik. Musa əsil molladı, araq içmir, çaxır içmir, şaxtada işləyir, ölür ayaq üstə. Zarra, diri ol, çağır onu geri».

Zarra da gedəndə yekə bir məktub yazdı göndərdi ona, amma nə olsun, kimiydi ona qulaq asan. Axırı da belə oldu, dörd uşaqnan qaldı düzdə. Qohum-əqraba da güclə özünü saxlayır, kimə üz tutasan?

Zarra evlərdə işləməli oldu, bir az vaxt JEK-də süpürgəçi də işlədi, sonra böyük gədəsi dedi ki, «çıx oradan, mən istəmərəm sən süpürgəçi işləyəsən».

Zarra ona məhəl qoymadı, hər səhər üz-gözünü bərk-bərk büküb – bürüyüb gedirdi, özünə tapşırılan ərazini süpürüb qayıdırdı. Sonralar onlara sapsarı rəngdə gödəkçələr verdilər və məcbur edirdilər ki, o gödəkçəni geyinsinlər. Pah, o gödəkçə evə gələndən sonra Roman məktəbi atdı, qurşandı küçələrdə maşın yumağa, qazancı pis olmurdu, Zarranı da məcbur elədi işdən çıxartdı, «özüm ölməmişəm ki,»- deyib durdu, dədəsi kimi tərsiməzhəb olan oğlunun inadından dönməyəcəyini bildiyindən çarəsiz qaldı, işdən çıxdı.

Keçən dəfə Roman bərk xəstələndi. Ana qorxdu ki, o da Musa kimi vərəm ola. Bütün günü soyuqda, küləkdə maşın yuyan Romanın əlləri çat-çat olurdu, soyuqdan axır vaxtlarda gileylənirdi ki, «məndən güclülər mənim «ərazimi» zəbt eliyiblər. İmkan vermirlər işləməyə». Zarra da qorxurdu ki, dalaşar, vuruşar düşər polisə-zada. Allah eləməmiş, gəl, onda onu qurtar.

Bu gün də tezdən çıxdı, özünü qullar bazarına verdi. Arvadlar onun az qaldı alığını aşırsın. Ağız-ağıza verən qadınlar bir haray-həşir qopardılar, gəl görəsən, deməli, burada durub iş axtarmaq da mümkün deyildi. Yavaş-yavaş oradan aralandı, səkinin kənarıyla bir neçə addım getmişdi ki, qara

dərili gödəkçə geyinmiş, hündürboy bir kişi önünə keçdi:

-Lap az qalmışdı bu arvadlar səni yesin, -Zarra başını qaldırıb onunla yanaşı gedən kişiyə baxdı.

-Hə, eh, yazıqlar hamısı işsizdilər də. Mənim kimi onların da öz qayğıları var.

-Neçə uşağın var?

Zarra könülsüz dilləndi:

-Dörd.

-Paho, ərin haradadır?

-Ölüb.

-Ölüb? Paho, sizin güzəranınız lap pis olar.

-Hə, ehtiyacdır da.

-Uşaqlar böyükdür?

-Böyüyün on yaşı var.

-Oğlandı?

-Hə.

-Neçədə oxuyur?

-Eh, oxuya bilmir ki, kömək eləyir mənə, maşın-zad yumağa gedir.

-Gəlsənə ona mən bir iş düzəldim.

-Onu kim işə götürər?

-Götürər, götürər, adam var. Kömək eləyərəm, anam-bacım ol, sənə yazığım gəldi, müsəlmanıq da, vicdanım yol vermir, sizi belə naümüd görmək mənə ağırdır, — cibindən bir kağız çıxartdı.

-Al bunu, telefon nömrəmdir, uşaqnan məsləhətləşib razılaşsanız, zəng eləyin. Mən tələsirəm, bacı, bax, qərara gəl. Mən ona iş taparam. Yeməyi, içməyi, geyimi, keçimi hər şeyi olacaq. Sizə də köməyi çox olacaq.

Getdi. Zarra bir az müddət yerində duruxub qaldı, əlindəki kağıza baxa-baxa fikrə getdi. Kimsə onu itələməsəydi, yəqin ki, bir müddət belə qalacaqdı. Tələsik kağızı cibinə qoydu, evə yollandı. Qapıya çatanda yadına düşdü ki, qonşusu Kübra qarıya iki gündür baş çəkmir. Qapını döydü, gözlədi. Həmişə beləydi. Qarı gəlib qapını açana kimi vaxt keçirdi. Yenə də həmişəki kimi qarı gəlib qapını gec açdı. Zarra içəri girəndə otağın boğuq havası onun burnunu qıcıqlandırdı.

- Kübra nənə, heç olmasa arabir qapı—pəncərəni aç.

- Soyuqdu, tez-tez xəstələnirəm. Canımda taqət yoxdu. Pəncərədən də ki, yaman qorxuram. Sən haralardasan?

- Qapılar döyürəm.

- Dünəndən sənə orada ayın-oyun qoymuşam ki, gəlib aparasan. Gedəndə yadından çıxmasın.

Zarra gödəkcəsini soyunub yır-yığış elədi...

Evə gələndə elə yorulmuşdu ki, güclə yeriyirdi, soyunub köhnə xalatını əyninə keçirdi, uşaqlar məktəbdəydi. Güc-bəla ilə yeməyi hazırlayıb özünü divanın üstünə saldı. Fikrə getdi. «Roma bir tikə uşaqdı. O nə iş görəcək, görən? Nə işdir bu? Ay allah, mən neyləyim...» Yuxu onu apardı...

Qapının səsinə yerindən dik atıldı. Qaranlıq düşürdü. Uşaqlar dərsdən qayıdırdılar.

Zarra Roma gələnə kimi ora-bura vurnuxdu.

Gecə Roma gəldi, bənizi bozidi, əllərinə baxmağa ananın ürəyi gəlmirdi.

-Anan ölsün, tifil balam, sənin də dərdin mənə bir yükdü. Səhərdən axşama kimi əlin sudadır, ay bala, bu su səni də xəstə salar, sətəlcəm eləyər...

-Fikir eləmə ana, fikir eləmə, yaxşı olar.

Zarra o yuyunana qədər xörəyi isitdi. Çörək doğradı. Roma yeməyi çox iştahla yedi, sonra cibindəki qəpik-quruşları tökdü ortalığa. Ana Romanın üzünə diqqətlə baxdı.

-Bəlkə işini dəyişəsən. Bütün günü soyuqda sənə zülüm olur.

-Hanı iş?

Zarra yerindən qalxdı, cibindəki kağızı gətirib stolun üstünə qoydu. Roma?

-Bu nədir?

-Bir adam verdi, deyir uşağa iş düzəldərəm, — ananın səsi xırıldadı, — deyir yeməyi, içməyi, geyimi gen bol olacaq. Yeri də isti olacaq.

-Mən gedim təkcə öz boğazımı saxlayım?

-Yo-o-ox, deyir, sizə də xeyir olacaq. Nə versələr bəsindi, təki işin yüngül olsun, ağır olmasın.

Roma anasının dediklərini unuda bilmədi. Doğurdan da, hər gün küçələrdə əlində vedrə, əski dayanıb kimdənsə onun maşınını yumaq üçün xahiş etməkdən də bezmişdi. Roma anasını, balaca bacısını və qardaşlarını gözünün önünə gətirəndə bütün çətinlikləri unudub, başını atıb yatır, səhər tezdən qalxır, bir tikə pendirlə şirin çayını ötürüb işə tələsirdi...

Amma bu gün anasının dedikləri ağlına batmışdı. Ümidi elə bil işarmağa başlamışdı. Başqa bir iş tapmaq, özü də anasının dediyi kimi yad əminin vəd etdiyi yemək, içmək, yaxşı geyim, hələ bir anasına da kömək edəcəyinə inam onda nəsə başqa bir sevda oyatmaqdaydı. Anası onun razılığını gözləyir, demək o da istəyir ki, Roman yaxşı işdə işləsin.

Səhər Roman «işə» getməzdən əvvəl anasına o əmini tapmaq, onunla sövdalaşmaq üçün vaxt təyin etməyi məsləhət bildi.

Roman o gün sən deyən işə də elə can yandırmadı. Kiminsə maşınını yumaq üçün dil-tava tökmədi.

Xoşluqla kim razılıq verdisə, onun da maşınını yudu və anasına dediyi vaxtda evdə oldu. Anası nigarançılıqla onu gözləyirdi:

-Gəldin? Nə yaxşı tez gəldin. O əmiylə danışmışam. Metronun qabağında saat beşdə bizi gözləyəcək. Hazırlaş, əllərini təmiz yu, səliqəli geyin, köhnə də olsa səliqəli geyin, deməsin ki, bunların cındırından cin hürkür, səliqələri də ki, belə.

Roman anasının narahatçılığını, keçirdiyi hissləri uşaq qəlbilə də olsa yaxşı duyurdu. Ananın o yaxşı adama bağladığı ümidlərini öldürə bilməzdi...

Saat beş olmamış, iyirmi dəqiqə də tez ana-bala metronun qabağındakı dayanacağın yanında dayanıb o yaxşı adamı gözləyirdilər.

Kişi vədəsinə xilaf çıxmadı. Saat beş tamamda oldu metronun qabağında, elə uzaqdan gələndə ananı tanıdı, yanındakı uşağı da gördü. «Uşaq deyir buna, buki, maşallah yekə kişidi». Maşını düz onların qənşərində saxladı, qapısını açıb düşdü. Zarra onu görəndə tanıdı, kişi əl edib onları lap maşının yanına çağırdı. Zarra ilə Roma sevinə-sevinə ona yaxınlaşdılar. Kişi uşağı bir də diqqətlə gözdən keçirdi. Zarraya baxdı, ürəyində «dünyanın bir tikə gözəlliyini də Allah elə bil bu bədbəxt qızına qıymayıb, üçlük taxtaya oxşayır. Uşağa bax, maşallah, yox, yaxşıdır, şef bəyənəcək. Söz yox ki, bəyənəcək». Kişi maşının qapısını açıb anaya və oğula yer göstərdi:

-Oturun, gedək şefin yanına.

Zarra bir an duruxdu, amma kişinin təmiz, həlim baxışları ona elə bil ürək-dirək verdi, həm də ki, Roman da yanındaydı, Evin kişisiydi o, ana onun yanında bir az da elə bil ürəkli oldu.

Oturdular maşına, kişi özü qapıları örtüb, sükanın arxasına keçdi. Zarra maşının içində oturmuşdu, elə bil sehirli aləmə düşmüşdü. Ömründə belə bir maşının içində olmamışdı. Roman isə çox görmüşdü, çox belə maşınları yuyub par-par parıldatmışdı. Əyilib gizlicə şüşələrindən içini də seyr eləmişdi, ürəyindən də keçirmişdi ki, kaş belə bir maşınları olaydı. Atası sağ olsaydı, eh, heyif ki, onun işləri yaxşı gətirmədi, yoxsa Rusyetə gedib işləyib pul gətirib azmı belə maşınlara sahib olmuşuq. Roman atasının ona vermədiklərini indi xəyallarında, arzularında özü əldə etməyə hazırlaşırdı.

Maşın onları gah dar, gah geniş küçələrlə aparıb elə bir yerə çıxardı ki, ana-bala bu yerləri ilk dəfə görürdülər. Əslində Zarra, sən deyən, şəhəri elə yaxşı tanımırdı, nə fərqi var ki, bunlar hara gəlib çıxıb.

Kişi yaraşıqlı bir binanın qarşısında maşını saxladı, onlara maşında gözləməyi təklif etdi, özü isə binanın göy-qara rəngə çalan şüşəli qapısından içəri girdi.

Anna-bala xeyli gözlədilər, kişi gəlib çıxmırdı. Zarra narahat olmağa başlayanda Roman əlini onun dizinin üstünə qoydu.

-Bir az səbirli ol, ana.

-Nəsə, deyəsən...

-Bura böyük idarədir, yaxşı böyük şirkətdi. Şef dediyi də yəqin iş adamıdır, döz, bir az döz.

Kişi şüşəli qapıdan girsə də, maşının qabağında peyda olanda ana-bala bilmədilər o, binanın hansı qapısından çıxıb gəldi. Çünki ana - bala kişi gedəndən gözlərini o şüşəli qapıdan çəkmirdilər.

Kişi maşina əyləşdi, pedalı basdı, yavaş-yavaş maşını binanın sol tərəfinə tərəf sürdü, dəmir zəncirli, dəmir barmaqlı qapı açıldı. Maşın həyətə, oradan da bir baş binanın həyətinə girdi, sonra işıqlı bir zala daxil oldu, orada kişinin sürdüyü maşınlardan beş-altısı vardı. Maşını saxlayıb: - düşün, - dedi onlara.

Zarra nəsə qorxuya düşmüşdü. Roman isə öz aləmində idi. Kişi pultu basıb maşının qapılarını bağladı. Onlara:

-Arxamca gəlin, - deyib özü qabağa düşdü.

Zarra ayaqları bir-birinə dolaşa-dolaşa içində daxili bir peşimançılıq duyaraq, qeyri-iradi, kişinin arxasınca gedirdi. Mərmər pilləkənləri, par-par parıldayan divarları seyr edən Roman gördüklərinə heyran qalmışdı.

Onlar ikinci mərtəbənin üstünə «4» yazılmış qapısının yanında dayandılar, kişi əlini atıb cibindən çıxardığı açarla qapını açdı. Onları içəri saldı. Otaq isti, səliqəli və zəngin bir kabinet idi. Kişi onları otaqda qoyub:

-Burada oturun, rahatlanın, gəlirəm, - dedi. Çıxanda baxışları Zarrayla rastlaşdı. Qadının ağarmış bənizini görüb ürəyində ona yazığı gəldi. Qorxmuş, hürkmüş qadının tələşlı baxışları onu heyrətə saldı: «bədbəxt qızı, bir vid-fasonun da yoxdu, tamah salaq, sən nədən hürkürsən» düşündü, bununla belə onu bir qədər sakitləşdirmək üçün təsəlli verdi.

-Əyləşin, yaxşı istirahət edin. Şefin yanında adamlar var. İşini qurtaran kimi beş-on dəqiqəyə burada olacaq, o stolun üstündəki sokdan tök, bacı, uşağına da ver, özün də iç. Gəlirəm, gedim şefə bildirim ki, yuxarıda onu gözləyirik.

Çıxdı. Zarra, bir az toxtaxlıq tapdı elə bil, nəsə daxildə bir rahatlıq duydu. Roman geniş, şüşəli pəncərəyə yaxınlaşdı, oradan çölə baxdı,

çevrilib hələ də anasını ayaq üstə görəndə təəccüblə:

-Niyə oturmursan? Otur da.

Zarra susdu. Roman anasının hələ də nigarançılıq içində olduğunu görüb:

-Ay ana, sənə nə olub?

-Heç.

-Bu kişi yaxşı kişiyə oxşayır. Bizə qarşı da xeyirxahdı, sən nigaran olma. Hər şey yaxşı olacaq. Şef gəlsin, nə iş təklif etsə, razı olacağam.

Qapı döyüldü, Zarra diksinib qapıya baxdı. Cavan bir qız içəri daxil oldu. Məcməyidə çay, konfet bir az da peçenye gətirdi, stolun üstünə qoydu, onları çaya dəvət etdi.

-Şef beş-on dəqiqəyə gələcək. Soyuqdur, çay için,qızının,— dedi.

Getdi. Zarra qız gəlib gedəndən sonra içində bir yüngüllük hiss etdi. Divanın küncündə oturdu. Roman çayı və bir konfeti gətirib onun dizlərinin üstünə qoydu:

-İç, sənə soyuqdur, gömgöy göyərmisən. Tez ol.

Zarra Romanın üzündə, baxışlarında zərrə qədər narahatlıq görmədi, bundan da təsəlli tapdı.

Şef gələnə kimi Zarra xeyli özünə gəldi.

Şef cavan bir kişiydi. Qırx-qırx beş yaşı, bəlkə də çox bəlkə də az olardı. İçəri girəndə xarici odekalonun iyindən Zarra boğuldu. Amma şef çox nəzakətlə, ədəblə onlarla görüşdü. Romanın başını tumarladı. Ayaqüstə:

-Belə, bacı, uşağı işə götürəcəyik. İş deyəndə, belə ki,- çevrilib onları gətirən kişiyə nəzər saldı, — bir şey demisən?

-Yox, özünüz deyin.

-Belə... şey... dilini sürüdü, — belə, uşağı bağa aparacağam. Ailəmin yanına, bağdaçiçəklərə, ağaclara qulluq edəcək, ayda sənə üç yüz dollar da pul göndərəcəklər. Amma bir şərtlə.

Zarra gözünü döydü.

-Şərtimiz budur ki, uşağı tez-tez görməyəcəksən, telefonla əlaqə saxlayacaqsan, amma iki-üç aydan bir vaxt olanda, şəhərə gələndə gətirəcəyik.

Zarra elə bil uçundu.

-Narahat olası heç nə yoxdur. Sənə zor eləmirəm, razı deyilsən, özün bilərsən. Yeməyi, içməyi, geyimi keçimi ki, ona biz verəcəyik, sən ömrün boyu gücün çatıb bunu edə bilməyəcəksən. Mən bağımda işləyən işçilərdən nizam-intizama əməl etməyi tələb edirəm. Mən pul verirəm, pul, pulu isə sudan yığmıram. Razısan, razılaşaq günü bu gündən yola salaq. Razı deyilsən, vaxt azdır, işim çoxdur. — Getməliyəm. Şef qapıya çathaçatda Roman qışqırdı:

-Razıyam, mən razıyam, anam da razıdır,- Şef Romana tərəf çevrildi, geri qayıtdı. Əlini onun tünd, qara saçlarına çəkdi.

-Kişisən, əsl kişi.

Zarra susurdu:

-Arvad, razı ol, xeyir görəcəksən.- Zarra heç nə demədi, deyə də bilmədi. İki-üç aydan bir balasını görəcəyini düşünüb dili qatlanmışdı ağzında, danışmağa heyi yox idi.

Şef qapıya tərəf getdi, dönüb onları bura gətirən kişiyə:

-Ruslan, apar o uşağı geyindir, kecindir, yaxşı-yaxşı, ayağından tutmuş başına qədər, centlmenlərə layiq, anasına da xərclik ver, apar evlərinə, anasını evə qoy, uşağı apar bağa. Tapşır Dimaya onun vəzifəsini başa salsın, — kişi çıxdı.

Zarranın matı-mutu qurumuşdu. Kişi onları gətirdiyi yerdən də düşürüb, maşına oturdub binadan çıxdı. Onları böyük salonlu bir mağazaya gətirdi. Onları mağazanın işçiləri qarşıladı. Xidmətçi oğlan Romanı aparıb getdi. Bir az keçmədən kişi başqa bir adamı çağırdı. Nə dedi, nə demədi, kişi getdi, bir qadınla qayıtdı. Qadın gəldi, qapının yanında divara söykənib dayanmış Zarraya yaxınlaşdı. Kişi:

-Bacı, get, sən də bir şey tap, geyin, pulunu ödəyim.

Zarra yerindən tərpənmədi.

-Yox, yox, Romana, uşağa baxın, mənə lazım deyil. Varımdı, hər şeyim var, — getmədi. Xidmətçi qadın çiyinlərini çəkdi, kasıb geyimli Zarranı süzdü, dodaqlarını büzdü, onlardan aralandı...

Roman qapıda görünəndə Zarra onu tanımadı. Roman bu geyimdə bir boy da uzun görünürdü. Ananın elə bil üzünə günəş doğmuşdu. Romanı qucaqlayıb bağrına basdı. İsti göz yaşları Romanın üzgözünü islatdı. Kişi:

-A bacı, niyəağlayırsan. Uşağın maşın yumaqdan əlləri nə kökə düşüb görürsən? Maşallah, innən belə kişi kimi dolanacaq, onu elə evə aparıram ki, qapı qul-qaravaşla doludur. Sənin oğlundan da balaca uşaqlar var orada. Sən deyən elə ağır işləri də yoxdur. Görərsən, özün də mənə duaçı olacaqsan.

Onlar qapıdan çıxdılar. Maşında kişi Zarraya iki göy yüzlük uzatdı:- Bu başdan avansdı. Hər ay gətirib pulunuzu verəcəm. Adresinizi də bilim.

Onlar Zarragilin evinin tininə çatanda Zarra maşını saxlatdı. Ana maşından zorla düşdü, ayaqları getmirdi, Roman da maşından düşdü. Ananın ürəyi çırpınırdı, az

qalırdı sinəsini dağıdıb çıxsın.

-Roman, balam.

-Ana, özünü ələ al. Məndən nigaran qalma. Tez-tez zəng edəcəyəm. Heç narahat olma. Küçələrdə işləmə, orada-burada gedib qab yuma. Hər ay sənə aylığımı çatdıracam. Uşaqlar böyüsün. Mənim də harada olduğumu demə. Məktəbdən gəlib axtara bilərlər. Denən kəndə göndərmişəm, orada oxuyur. Eşitdin, dözümlü ol. Bircə dözümlü ol.

Kişi Romanın qolundan tutdu:

-Gedək, - maşına tərəf çəkdi. Zarranın bir saatda on il qocalmış sifətinə baxdı, elə bil yazığı gəldi, ona ürək-dirək verdi:

-Şefin elə deməyinə baxma, könlün istəyəndə gətirəcəm, aparacam. Uzaq yoldu, uşaq tək gəlib gedə bilməz. Mən, mən gətirib aparacam.

-Qardaş, balamın amanatı, - Zara hönkürdü.

Maşın getdi. Zarranın gözləri maşının arxasında işıqda açıq-aydın seçilən nömrəyə zilləndi.

Zarra yüz metirlik məsafəni bir saata qət elədi. Sürüdüb özünü qapıdan içəri saldı. Divana çatdırıb hönkürtüylə: -ay Müzü,- deyə bildi. Məni bu dörd yetimlə tək qoyub getdin.

Üç saat keçməmiş telefon zəng çaldı. Zarra telefona atıldı. Roman idi. Səsi çox şuxdu. Zarra elə bil ürəkləndi. Roman çox şad idi. Ana yavaş-yavaş özünə gəldi. Dərsdən gəlib ac-susuz onun üzünə baxan uşaqları unutmuş ana dalğalar qoynunda qayalara çırpılan qayığa bənzəyirdi...

Roman anasından ayrılıb maşına oturanda az qaldı hönkür-hönkür ağlasın, amma ağlamadı, güzgüdən gözlərini ona dikmiş cüt baxışları gördü, qüruruna sığışdırmadı ki, axan göz yaşlarını kimsə görsün, göz yaşları ilişib onun hulqumunda qaldı, daşa döndü. Sonralar Roman o daşa dönmüş göz yaşının...

Onlar qaranlıqda yol getdiklərindən Roman getdikləri səmti seçə bilmirdi. Özünə sığışdırıb kişidən də soruşmurdu ki, biz hara gedirik.

Maşın hündür hasarlı, dəmir bir qapının qarşısında dayananda qapı taybatay açıldı, maşın içəri girdi. Roman maşının pəncərəsindən nura qərq olmuş həyətin gözəlliyinə heyran oldu. Xarici kinolarda belə təmtəraqlı, belə vüsətli villaları görmüşdü və ağlına belə gətirməmişdi ki, onun doğma vətənində də belə evlər, həyətlər var.

Maşından düşəndə onları bir kişi qarşıladı. Romanın gözü həyətdə qalmışdı. Həyətin ortasındakı hovuzun içinə düşən ətrafdakı işıqların əksi həyəti daha ecazkar göstərirdi. Ağacların bütün vücuduna sarılmış rəngbərəng işıqlar adamın xəyalını çəkib uzaqlara aparırdı. Romanın nəzərində buralar cənnət idi, «dünyada bu yerlərin tayı- bərabəri yoxdur. Heç bu Evin də tayı bərabəri yoxdur, lap elə mərc gələrəm ki, yoxdur..»

Onu gətirən adam həyətin xidmətçisinə nəsə pıçıldadı. Kişi uşağa baxdı, bu qarışılıqda Roman onun haqqında elə bir rəyə gələ bilmədi. Kişi gedəndə xidmətçiyə dedi ki, ona arabir icazə verin, anasıyla danışsın. Kişi başı ilə razılıq işarəsi etdi, amma kişinin dediklərini də eşitdi və bu sözlər onun qulağında güllə kimi partladı:

-Anasız uşaq tapmadınız? Anasız uşaq yaxşıydı. Bunun nazıyla kim oynayacaq?

Romanın bütün xəyalları, yol boyu ürəyində götür-qoy elədiyi arzular bir andaca alt-üst oldu. Bir anlıq əynindəki bütün paltarı cırıb çıxarmaq, gəldikləri yolu piyada belə qaçıb geri dönmək keçsə də, gözünün önünə anasının ovcuna basılan iki göy yüzlük düşdü, xəstə, zəif vücudlu anası düşdü, bir də aclıqdan deyinən, küsən, ağlayan balaca tifillər düşdü. Qəzəbi yatdı.

Kişi onu içəri aparanda da, bir otağa salanda da, «bu gecəni burada qalacaqsan»- deyəndə də, onun üçün gətirilən axşam yeməyini yeyəndə də, yerinə girib yatanda da Roman özündə deyildi...

Səhər gözünü açanda Roman əvvəlcə bilmədi haradadır, sonra hər şeyi xatırladı... Qulağına qəribə səslər gəldi, yerindən qalxdı, pəncərəyə yaxınlaşdı və gördüyü mənzərə onu heyrətdə qoydu. Qanadları gərilmiş, hər lələyi min bir rəngə çalan iki tovuz quşu həyətdə, yamyaşıl göy otların arasında gəzinirdi. Hündür, yamyaşıl şam ağacları, yamyaşıl mərmər çəmənlik könül oxşayırdı. Roman daxilində: «Səhərdə küknarların üstündə dörd barmaq qalınlığında toz yatır, bunları isə elə bil indi çimdirib çıxardıblar hamamdan. Sən bir çəmənliyə bax, parklarda beləsi olmur, qışda belə çəmənliklər nə gəzir. Yəqin mən bu çəmənliklərə qulluq edəcəyəm: - ürəyində Roman bu sevdadan razı idi, amma axşam o xidmətçinin dediklərin də yadından çıxardammırdı, elə bil nəsə içində küsmüşdü bunlardan, ən çox da elə o xidmətçi kişidən incimişdi.

Səhər yeməyini otağa gətirdilər. Bir yekə fincan kofe, yağ, cem, bal, heç Roman atası öləndən bəri bu qədər yeməyi bir öynədə qarşısında görməmişdi. Hər səhər bir parça yağsız pendirlə çörəyi şirin çayla yeyib dərsə qaçan bacı-qardaşları yadına düşdü, iştahası kəsildi. Am-

ma düşünəndə ki, anası da artıq onlara yaxşı yeməklər yedizdirəcək, könlü rahatlaşdı. Yavaşca qabı qabağına çəkdi. Günortaya kimi Roman otaqda qaldı, darıxdı, eləbil onun varlığı unudulmuşdu. Yox, günorta naharında yenə o xidmətçi kişi gəldi, bir padnosda sup, katlet, kartof püresi, sokgöy xiyar, pomidor qəribə salat gətirib qoydu otağa, getdi. Roman zəhimindən zəhər tökülən kişidən ürək eləmədi soruşsun ki, mən nə qədər bu otaqda qalacağam. Amma deyəmmədi. Yedi, özü də doyunca yedi, səhər də qabında yemək qalanda kişi ona sərtliklə demişdi ki, «sənin qabağından qalanı kim yeyəcək». Ona görə də bu dəfə xörək gətirəni özündən razı salmaq üçün bütün qaı boşaltdı. Kişi gəlib boş qabları aparanda heyrətlə yox, Romana yazıq, tifil, ac bir səfilə baxan kimi baxdı. Bu da Romanın gözündən yayınmadı. «Yox, mənimki bununla tutmayacaq. Bu mənim maşınlarını yuduğum müştərilərimə oxşamır. Qurudur, sərtdir, adım oğlunun üzündə bir insan təbəssümü də yoxdur. Elə bil bura gəlmişəm çörəyinə ortaq olmağa. Heç elə bil gəlişimə razı deyil, mən ona neyləmişəm ki, adam kimi bir mehribanlıq, səmimiyyət da görmürəm».

Axşama yaxın Roman içəri girən bir xidmətçinin əmriylə onun arxasınca getdi... Ona həyətdə gəzinmək üçün ayaqqabı verdilər. Kişi onu tövləyə apardı, orada yaşlı bir kişi atı çıxarıb tövlənin qapısının ağzındakı dirəyə bağlayırdı. Atın görkəmi Romanı valeh elədi. At Koroğlunun Qıratına bənzəyirdi. Lap elə nağıllardakı kimi. Fınxıranda ağzından, burnunun dəliklərindən buxar qalxırdı. Kişi dünyasını unutmuş Romanı dümsükləyib xəyaldan ayırdı:

-Ay bala, qırağa dur, atar səni dırnağının altına, yerə yoğurar. Şefin atıdır, özü kimi hərdeyəni bəyənmir, qırağa dur, lap qırağa, otunu, ələfini verim, havasını dəyişim, sən də ondan çalış kənarda dur. Qarpar səni, elə qırpar ki... eh...ey. Onun itini, atını ram eləmək müşkül işdir ey, müşkül işdir. Diri-diri yeyər səni. Canına heyfin gəlsin, kənar dur.

Kişi atın üstünü qaşovladı, tumarladı, qabağına qabda yarma qoydu, suyunu verdi, atını təmizlədi. Roman ətrafı gözdən keçirməyə başladı. Həyətin lap aşağısında balaca bir qırmızı kirəmitli ev görünürdü. Ayrıca tikiliydi. Orada nə var görəsən? — Roman fikirləşdi.

Romanın arabir həyətdə gözünə dəyən uşaqlar da ona yaxınlaşmırdılar. Elə bil onu görmürdülər. Roman onlarla ünsiyyət saxlamaq istəsə də mümkün olmadı. Qaranlıq düşürdü. Həyətin çəmənliklərindən fontan vuran su elə böyük sürətlə yuxarıya doğru qalxırdı ki, yamyaşıl küknar ağaclarının başından aşağı tökülürdü. Artıq Romana agah idi ki, niyə bu ağacların üstündə bir barmaq qalınlığında toz yoxdur. Göz oxşayan yaşıllıqlar, çəmənliklər, qışın belə oğlan çağında həyətdə bəzi bağçalarda qızaran çiçəklər Romana cənnəti xatırladırdı. Hər gün tozlu, çirkli küçələrdə dayanıb çirkli maşınları yumaqdan cana doymuş Roman elə bil o xatırladığı cənnətə düşmüşdü. Roman taleyindən razı idi.

Axşam yenə yatmazdan əvvəl Roman yemək yedi, otaqda tək qaldı...

İki gün belə keçdi. Üçüncü gün Roman səhər tezdən yerindən duranda həyətdə maşın gördü. «Bu nə vaxt gəldi, mən görmədim, bilmədim», az keçməmiş küçə qapısı açıldı, iki süd rəngli, bir qara rəngli BMV də həyətə girdi. İçindən düşən xanımlar və kişilər nə haqdasa danışıb gülürdülər. Onlar evin o biri başına tərəf getdilər.

Roman onları görmədi. Günorta xidmətçi onun otağına gəldi.

-Şefin yanına aparacağam səni. Bir sözünü iki eləmə, nə desə baş üstə de, sözündən çıxsan, özünə edəcəksən, eşitdin? Gəl arxamca.

Roman şefi görmüşdü, ona görə də arxayınca onun arxasınca getdi. Onlar böyük bir zala daxil oldular. Romanın diqqətini birinci növbədə zalda asılmış iri, nəhəng çılçıraqlar cəlb etdi. Ağzı açıla qaldı. Onu heyrətdən ayıran qulağına gələn dəhşətli, boğuq səs oldu. Səs gələn tərəfə çevriləndə qara, hündür, yekə bir iti gördü, görkəmindən elə qorxdu ki, rəngi sapsarı saraldı. O, belə iti ömründə ilk dəfə görürdü. Yox, bu it deyil, nəsə bu....bu... Xidmətçinin arxasına girdi. Roman yenə bir səs eşitdi:

-Bu nədir, uzaqdan mənim Killerimi görüb şalvarını doldurdu, bu. Bunu haradan tapıb gətirmisiniz?

Roman bu kişini tanımadı «yox, bu o gördüyüm deyil, bu şef deyil, bu, bu...».

Xidmətçi onu dümsüklədi:

-Get, şefin əlini öp.

Roman yerindən tərpənmədi. İtin qorxusundan tir-tir əsirdi. Yavaşca xidmətçiyə:

-Mən itdən qorxuram.

-Nə? — Şef birdən qəhqəhə çəkdi. -Qorxursan, gəl bura.

Romanın ayaqları yerə mıxlanmışdı, tərpənmirdi. Xidmətçi də qəzəbləndi.

-Get şefin əlini öp, küçük.

-Əmi, — Roman zarıdı.

Şefin qəhqəhə dolu səsi otağı

lərzəyə saldı.

-Gəlmir, nə olar Killer, onu yanıma gətir.

İt yerindən qalxanda Roman sarısını uddu, bir çığırtı qopdu içindən.

Killer iki ağız hürdü. Səsi elə bil mikrafondan gəlirdi. Romanın başının üstündəki çılçıraqların şüşələri zingildədi. Killer uşağın üstünə atıldı. Roman yıxıldı, Killer pəncəsiylə onun pencəyini dartdı, cırdı, sonra əynindəki şalvarı dişinə keçirdi, cırıb saldı. Sonra Roman özünü toplayıb, bu vəhşi itin əlindən qurtarmaq üçün şefin yanına atıldı, ayaqlarına döşəndi. Şef bu səhnədən qəşş edirdi. Killer onun əmrlərini yerinə yetirdikcə haray salan, nalə çəkən, qorxusundan bağrı çatlayan balaca uşağı tamamilə unutmuşdu. İkiqat əyilmiş xidmətçi isə ancaq yerə baxırdı. Daş kimi durduğu yerdən qımıldanmırdı. Şef paltarları cırılmış, bayılmış Romanı xidmətçiyə göstərib:

-Rədd elə bunu burdan, — dedi.

Romanın qollarından tutub xidmətçi çölə sürüdü, otağına apardı. Cırıq paltarını çıxartdı. Özündə olmayan Romanın itin dırnaqları cırmış yaralarına yod çəkdi, amma bir kəlmə belə danışmadı, dinmədi, getdi.

O gedəndən sonra otaqda tək qalmış Roman uzun müddət özünə gələ bilmədi və nə vaxt ayıldısa, o dəhşətli səhnəni yadına salıb yenidən huşunu itirdi, yuxuda da itlər onu didişdirdi, parçaladı, Roman qışqırıb yuxudan ayıldı. Hər ayılanda özünü otaqda tək görüb yenidən huşunu itirdi... Səhəri ölüm-dirim, qara-qura yuxularla keçirən Roman səhər yerindən durdu, ayağının, kürəyinin yaraları sızıldadı, amma, dünənki hadisəni yadına salıb dəhşətə gəlsə də şükr edirdi ki, sağ-salamatdı.

Günorta yenə xidmətçi gəldi, onu şefin yanına apardı və dönə-dönə tapşırdı ki, itə tərəf baxmasın, otağa girib, ona «şefin əlini öp»- deyəndə gedib öpsün.

Roman isə təəccüb içində idi ki, axı, nəüçün o, şefin əlini öpməlidir?

Amma otağa girəndə hər şey alt-üst oldu. Xidmətçi ona: -Get, şefin əlini öp,- deyən kimi — Roman özünü şefin yanına atdı, əlini öpdü. Şef onu itələdi:

-Küçük, kişi döyülsən, itdən qorxursan.

-Qorxmur...ram:

-Qorxmursan?- heyrətləndi.

-Lap yaxşı, onda bu gecə Killerimin qulluğunda duracaqsan. Eşitdin? Apar onu yedizdir, içizdir. Axşam Killerin otağına apar. Axır vaxtlar Killer nasazdır. Onu tək qoymaq olmaz. Onunla qalacaqsan.

Romanı geri qaytaran xidmətçi lal-dinməz onu otağına apardı.

Roman isə ayaqüstdə ölmüşdü. Şefin dedikləri ona zarafat gəlirdi. Elə düşündü ki, Killerdən qorxduğu üçün şef ona belə deyir.

Axşam xidmətçi gəldi, onu otaqdan çıxardı. Şefin otağına tərəf getmədilər. Onlar həyətin o başındakı balaca, dünən gördüyü qırmızı kirəmitli balaca evə gəldilər. Xidmətçi, arxasınca da qorxa-qorxa yeriyən Roman içəri daxil oldular. Yerdə qalın bir gəvə salınmışdı. Divan qoyulmuşdu, səliqəli otaq idi.

Az keçmədi, çöldən səs gəldi. Vahiməli səsdi, Killerin səsiydi. Əvvəlcə şef, arxasınca Killer içəri girdi. Roman küncə qısıldı. Şef gəlib divanda oturdu. Xidmətçiyə əliylə çölə çıxmağı əmr etdi. Xidmətçi çölə çıxdı. Şef Romana əmr etdi onun yanına gəlsin, Roman əsə-əsə ona yaxınlaşdı. Killer xalçanın üstündə uzandı. Qapqara tükləri çılçırağın işığında par-par parıldayırdı. Baxışları, görünüşü o qədər dəhşətli idi ki, Roman ilk dəfə elə bil itlərə qəlbində nifrət duyurdu. Həmişə qazandığı pullardan zibilliklərdə eşələnən itlərə çörək alıb yedirtdiyi, onlara yazığı gəldiyi üçün qəlbində özünü qınadı. Şefin səsi onu xəyaldan ayırdı:

-Onunla qalacaqsan. Onun qayğısını çəkəcəksən, eşitdin?

Şef qapıdan çıxmaq istəyəndə Roman özünü onun ayaqları altına atdı:

-Əmi, qurban olum, qaytar məni evimizə, heç nə istəmirəm, evə istəyirəm, evə.

Şef onu təpiklə itələdi. Killerə işarə elədi:

-Ağan odu, o nə desə, o olacaq. Onun bütün şıltaqlıqlarına dözəcəksən. Sən onun oyuncağısan, o, sən deyən itlərdən deyil. O səndən də qiymətlidir. Mən ona pul vermişəm. O pula sənin kimi yüz küçüyü ömürlük yedizdirə bilərdim. Amma neynirəm sənin kimiləri? Hə, Killer?- Killer yerindən qalxdı, şefə yaxınlaşdı. Roman qışqırdı. Killer bir ağız hürdü, səsindən otaq titrədi, Roman özünü evin küncünə atdı...

Şef çıxan kimi Roman özündən getdi. Xidmətçinin səsinə gözünü açanda səhər idi. Killer evi tamam batırmışdı, özü isə yox idi.

Xidmətçi ondan tələb etdi ki, Killerin zibillədiyi evi silsin, səliqəyə salsın, bundan sonra ona səhər yeməyi veriləcək.

Yaraları sızıldaya-sızıldaya Roman evi təmizlədi. Səhərə sağ çıxdığına görə özünü xoşbəxt sanırdı Roman. Həvəslə Killerin batırdığı

otağı səliqəyə saldı, amma qəlbində şefə də, Killerə də nifrəti vardı....

Axşam həyətə bir maşın gəldi. Onda Roman həyətdə idi, maşının içindən düşən avçarkanın özünə tərəf gəldiyini görüb Roman götürüldü, qaçıb özünü Killerin evinə saldı. Avçarka qapıya çatıb iki ağız hürdü. Roman pəncərədən ona baxdı, avçorka geri götürüldü. İtin sahibi ona doğru gəldi. Bu, yaşlı bir kişi idi. Diqqətlə Romanı süzdü.

-Bəs deyirlər sən Killerdən qorxmursan. Qorxmasaydın mənim ağıllı Nensimdən belə qorxub qaçmazdın. Deməli, dostumundedikləri yalandır. Sevir də özünü də, nökərlərini də öymәyi.-Romanın birdənbirə sifəti sərt ifadə aldı. Kişi elə bil duydu ki, sonuncu kəlməsini yerində işlətməyib. Balaca oğlanın könlünü almağa çalışdı. - Qorxma, Hensi adama toxunmur. O səni tanımır. O, Killerin nəslindən döyül. Nensi tərbiyəli oğlandır. O, insanları sevir. Sənin kimi uşaqları isə lap çox sevir. Killer səni başa düşə bilməz. Onun atası ev tərbiyəsi almayıb, vəhşidir, uşaqları da vəhşi olacaq.

Roman ona inanmadı, artıq heç kimə inanmırdı o, əlinə düşsəydi o şefi də, onu aldadıb bura gətirən o qara maşınlı əmini də tikə-tikə doğrayardı.

Roman günorta yeməyi zamanı xidmətçidən itlər haqqında kitab istədi. Xidmətçi ona kitabları ancaq şef gedəndən sonra gətirəcəyini dedi.

Roman Killerin nökəri idi. Onun yeməyini, suyunu verirdi, altını təmizləyirdi. Killer hirslənəndə onun paltarını cırıq-cırıq edirdi, pəncəsinin altına salıb əzirdi. Romanın bir yarası sağalmamış, o biri yarası qanıyırdı. Buradan qaçıb qurtulmaq onun üçün mümkün deyildi.

Günorta xidmətçi onu evə gətirdi. Əl telefonunu göstərib dedi:

-Yığ nömrəni, ananla danış, amma bir kəlmə artıq-əskik bir şey söyləsən, onu bir də görməyəcəksən. De sənə yaxşı baxırlar, bağbansan, anladın?

Roman titrəyə-titrəyə telefonu götürdü. Anasının səsini eşidəndə az qaldı ağlasın, amma... Xidmətçinin dediklərini xatırlayıb udqundu, boğazında nəsə göynədi, danışa bilmədi...

Roman telefon dəstəyini yerə qoyub hönkürdü, xidmətçi telefonu götürüb çıxdı. Roman bütün bu villada yaşayanlara, orada xidmət edənlərə lənət yağdırırdı. Hər gecə tək-tənha otaqda Killerin dəhşətli siması önündə çöp kimi əriyən Roman günbəgün şam kimi əriyirdi. Xidmətçi də hiss edirdi ki, bu uşaq heç sən deyən qabağa getmir.

Bir səhər Roman yerindən dura bilmədi. Onu götürüb otaqdan çıxartdılar. İlk gəldiyi otağa gətirdilər. Həkim gəldi, yoxladı. Onun yaxşı —yaxşı müalicəyə ehtiyacı olduğu bildirildi.

İki ay sonra Romanı o qara maşınlı kişi gəlib götürdü, maşina qoyub apardı. Roman yolda o kişinin əllərinə düşüb yalvardı:

-Məni anama apar ver. Yerimi onlara demə.

Kişi onu bir şərtlə evinə aparacağını bildirdi:

-Gərək harada olduğunu, başına nə gəldiyini heç kimə deməyəsən. Mənə kişi kimi söz ver. Yoxsa onlar mənim də, sənin də, ailənin də axırına çıxar, eşitdin?

Roman and içdi, dədəsinin qəbrinə də and içdi.

Kişi onu həkimə yox, evlərinə apardı. Qapıda düşürəndə cibinə xeyli pul qoydu. Dedi ki, - «şefə deyəcəm, maşından düşüb qaçmısan, inanacaq».

Roman qapını döydü. Zarra qapını açanda astanada duran Romanı tanımadı, birdən elə bil dəhşətə gəldi:

-Roman!

Ana-bala qucaqlaşdılar. Zarra gözləri çuxura düşmüş, rəngi sapsarı saralmış Romanın görkəminə baxıb şivən qoparırdı. Roman isə onu ovundurmağa çalışırdı:

-Ana, nə olub mənə, nə olub mənə, dayan görək, haysalma. Görürsən gəlmişəm, mənə yaxşı baxıblar, bax, gör nə qədər pul gətirmişəm.

Zarra pulları qapıb yerə çırpdı.

-Mən səni beləmi göndərmişdim?

Roman hirsindən partlayan anasına baxdı:

-Ana, sən məni kurorta göndərməmişdin ki...

Zarra birdən dayandı, yerində qurudu... huşunu itirdi.

Ayılanda qonşuları başına toplaşmış gördü.

Səhər Romanı həkimə apardı, heç yeri xəstə deyildi. Amma həkim boğazında...

Zarra ayaqüstündə ölmüşdü. Roman anasının yanında köynəyini soyunmurdu. Ana artıq onu böyümüş bilirdi. Get-gedə Roman əriyirdi, gecələr yuxuda «Killer»,-deyib qışqırırdı. Ayılanda anasını yanında görüb ona sığınırdı...

Heç nə Romana kömək etmədi. Roman öldü, onu yuyanlar dəhşətə gəlmişdi ki, bu uşağın bədənindəki şırımlar nədir, nə onu belə cırmaqlayıb...

**Gülxani Pənah**